

KİTABXANADAN
istifadə qaydaları
2023

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

MÜNDƏRİCAT

Üzvlük barəsində 3
İstifadə qaydaları 4
Çap mənbələrdən istifadə qaydaları 4
Elektron mənbələrdən istifadə qaydaları 5
Oxu zalından istifadə qaydaları 6
Sərbəst giriş mənbələri 7
Oxucuların məsuliyyəti 8
Əlavə xidmətlər 8

Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) nəzdində fəaliyyət göstərən Kitabxana-İnformasiya Mərkəzi respublika ərazisində turizm və menecment sahəsində zəngin fonda malik yeganə mərkəzdir.

Üzvlük barəsində

ATMU-nun kitabxana fondundan istifadə etmək hüququnu qazanmaq üçün aşağıda qeyd olunmuş addımların atılması zəruridir.

1. Oxucu nömrəsini əldə etmək üçün şifahi olaraq və ya e-mail vasitəsilə (library@atmu.edu.az) müraciət edilməlidir. Müraciətçilər aşağıda qeyd olunmuş məlumatları təqdim etməlidirlər:

   ATMU bakalavr və magistr tələbələri
   - şəxsiyyəti təsdiq edən sənəd
   - 3x4 şəkil (1 ədəd)
   - telefon nömrəsi
   - qeydiyyatda olduğu ünvan
   - korporativ e-mail ünvanı
   - təhsil aldığı ixtisasın adı və qrupun akronimi

   ATMU heyət üzvləri
   - şəxsiyyəti təsdiq edən sənəd
   - 3x4 şəkil (1 ədəd)
   - telefon nömrəsi
   - qeydiyyatda olduğu ünvan
   - korporativ e-mail ünvanı
   - tutduğu vəzifə və çalışdığı şöbənin adı

Digər oxucular kitabxana fondundan yararlanmaq üçün "İstifadə qaydaları" bəndində qeyd olunmuş məlumatla tanış olaraq lazımi mənbələrdən istifadə edə bilərlər.

Qeyd: Kitabxanada üzvlük tamamilə ödənişsizdir.

İstifadə qaydaları

Oxucu nömrəsini əldə etməklə istifadə üçün üzvlük hüququnu qazanan ATMU-nun bakalavr və magistr tələbələri, o cümlədən şəxsiyyətini təsdiq edən sənədlə Kitabxanaya-İnformasiya Mərkəzinə yaxınlaşan digər oxucular, kitabxana istifadəçiləri, kitabxana fondu və oxu zalında istifadə edə bilərlər.

Çap mənbələrdən istifadə qaydaları

Bakalavr və magistr tələbələrinin tələbə biletini kitabxana işçisinə təqdim etməklə kitab və digər materiallardan (audio və video daşıyıcılar) oxu zalından kənara çıxartmamaq şərti ilə istifadə edə bilərlər.

Oxu materiallarını müəllif, başlıq, mövzu, açar söz və ya indeks nömrəsi ilə axtarmaq üçün müraciətinizi kitabxanaçıya ünvanlayın.

Kitabxanaçıya müraciət etdiyinizdə tələbə biletinizi və oxucu nömrənizi təqdim edin. Oxucu nömrəsi olmadığı təqdirdə bu sənədin “Üzvlük barəsində” qeyd olunmuş məlumatla tanış olun.

Ensiklopediya, məlumat kitabçası, dissertasiya, lüğət, nadir və qiymətli kitablar, həmçinin bir nüsxədə olan kitablar yalnız kitabxanın oxu zalında istifadə edilə bilər.

Kitab verilmə müddəti kitab sayından aslı olaraq 21 gündən, bir simestr ərzinə verilə bilər.

Universiteti bitirdikdə, başqa ali təhsil müəssisəsinə köçürüldükdə və ya akademik məzuniyyət götürüldükdə qeydiyyat kitabçasında kitabxanaya məxsus çap məhsullarının olmadığı barədə qeyd aparılmış dövriyyə vərəqəsini təqdim etmək.

Müvəqqəti istifadə üçün əldə etdikləri çap məhsullarını tədris ilinin sonunda qaytarmaq tələb olunur.

Elektron mənbələrdən istifadə qaydaları

ATMU Kitabxanasının istifadəçiləri aşağıda adları qeyd olunmuş elektron mənbələrdən yararlana bilərlər:

UNWTO E-kitabxana

Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının (BMÜTT/UNWTO) qoşulmuş üzvü olaraq universitetimiz əməkdaşları, tələbələri, habelə kampus ərazisində kitabxana xidmətlərindən istifadə edən oxucular UNWTO elektron kitabxanasının zəngin fondundan yararlana bilərlər. E-kitabxana turizm sektoru və əlaqəli sahələri üzrə bütün vacib mövzuları əhatə edən nüfuzlu nəşrləri sizə təmənnasız olaraq təqdim edir. Oxucular ən son statistik hesabatlar, bazar araşdırmaları, yeni texnologiyalar, turizm siyasəti, dayanıqlı inkişaf və digər mövzularda məlumatları əldə edə biləcəklər. Kampus ərazisində UNWTO elektron kitabxanasına çıxış qeydiyyatsız təmin olunur. Məsafədən qoşulmaq üçün universitet əməkdaşları və tələbələr ATMU tərəfindən təqdim olunmş korporativ e-mail ünvanından istifadə edərək növbəti qaydalara riayət etməklə qeydiyyatdan keçməlidirlər:

1. www.e-unwto.org saytında qeydiyyat anketini tamamlayın.

2. Qeydiyyatdan keçdikdən sonra istifadəçi adınız və şifrənizlə e-kitabxanaya keçid edin.

3. Açılmış səhifənin yuxarı hissəsində göstərilən ad və soyad yazısını tıklayaraq fərdi hesabınıza daxil olun.

4. Yeni səhifədə **"Access Tokens"** seçərək boş xanaya **ATMU_2020-2021** yazısını əlavə edin və **SUBMIT** düyməsini basın.

Elektron İnformasiya Resursu EBSCO nəşriyyatı

EBSCO Publishing məlumat bazası dünyanın aparıcı nəşriyyatlarına elmi resursların ən böyük təchizatçısıdır. EBSCOhost xidməti vasitəsilə dövri nəşrlərin məlumat bazalarına giriş təmin edilir.

Verilənlər bazasında məqalələrin bəziləri tam mətn şəklində, bəziləri isə yalnız referat şəklində təqdim olunur. EBSCO həm jurnalların ən son nömrələrini, həm də 1950-ci illərə qədər olan bəzi başlıqlar üçün arxivi ehtiva edir.

EBSCO məlumat bazasına keçid: https://search.ebscohost.com/.

Görünən pəncərədə siz akademiyanın təqdim etdiyi bazaları görə bilərsiniz. Təqdim olunan əsasları axtarmaq üçün lazımi əsasları qeyd etmək və "Davam et" düyməsini sıxmaq kifayətdir. Açılan pəncərədə axtarış edə bilərsiniz.

Qeydiyyatla bağlı hər hansı çətinliklə üzləşdiyiniz halda, ATMU Kitabxana İnformasiya Mərkəzinə (library@atmu.edu.az) müraciətinizi ünvanlayın.

Oxu zalından istifadə qaydaları

Kitabxana tərəfindən təqdim edilən bütün kitabxana-informasiya xidmətlərindən istifadə etmək, o cümlədən:

1. Oxucu üçün nəzərdə tutulmuş kompüter və digər texniki avadanlıqlardan istifadə etmək, şəxsi notbuk, planşet və qulaqcıqları kitabxanaya gətirmək və onlardan istifadə etmək.

2. Oxu zalının bağlanmasına 20 dəqiqə qalmış kompüterdə işini yekunlaşdırmaq.

3. Kitabxanada mövcud olan bütün elektron resurslara və məlumat bazalarına giriş əldə etmək.

Oxu zalından istifadə zamanı aşağıdakılara əməl olunması zəruridir:

1. Başqa istifadəçilərə narahatlıq törədə biləcək hərəkətlərə yol verməmək, yüksək səslə danışmamaq.

2. Kitabxanaya qida məhsulları gətirmək, siqaret çəkmək, zibilləmək, masa, oturacaq və digər yerlərə saqqız yapışdırmaqdan çəkinmək.

3. Səsli rejimdə telefondan istifadə etməmək.

4. Audiovizual fayllara baxarkən və ya dinləyərkən qulaqcıqdan istifadə etmək.

5. Sosial şəbəkələrdə müxtəlif çatların və əyləncə xarakterli saytların istifadəsinə yol verməmək.

Sərbəst giriş mənbələri

- Milli Kitabxana
M.F. Axundov adına Milli Kitabxana oxuculara fondun milli və xarici nəşrlərə elektron çıxışı təmin edir.

- Mərkəzi Elmi Kitabxana
Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən Milli Elmi Kitabxana 150000-dən çox kitab və digər nəşrlərlə zəngin fondu oxucular üçün açıqdır.

- Prezident Kitabxanası
Azərbaycan Respublikası Prezidentinin İşləri İdarəsinin elektron kitabxanası elmi sahələri üzrə keçid etməyə imkan yaradır.

- Gənclər Kitabxanası
Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası açar söz, müəllif və sərlövhə əsasında müxtəlif nəşrləri tapmağa imkan verən zəngin elektron mənbədir.

- Google Scholar
Elmi ədəbiyyat üçün geniş axtarışın sadə yolunu təqdim edir. Müxtəlif elmi sahələri üzrə elmi nəşrlərin tapılmasını təmin edən axtarış sistemidir.

- Open Library
Kaliforniya Dövlət Kitabxanası və Kahle / Ostin Vəqfinin qrantı hesabına maliyyələşdirilən 1.000.000-dən çox pulsuz elektron kitab müxtəlif formatlarda özündə ehtiva edən mənbədir.

- Endnote

Esse və məqalə yazmaq üçün biblioqrafiya və istinadları idarə etmək üçün istifadə olunan bir idarəetmə proqram vasitəsidir.

Oxucuların məsuliyyəti

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən kitabxana fondlarına məxsus çap əsərlərinin və digər materialların itirilməsi və ya yararsız vəziyyətə salınmasına görə oxucular, hüquqi və fiziki şəxslər (milli mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələr istisna olunmaqla) yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla, həmin çap əsərinin qiymətinin 10 misli həcmində maddi məsuliyyət daşıyırlar. Bu proses kitabxana müdiriyyəti tərəfindən aşağıdakı qaydada həyata keçirilir:

1. Çap məhsullarını itirən, yararsız hala salan, yaxud qaytarmayan oxuculara həmin kitabın eyni nəşrini tapıb gətirmək təklif olunur.

2. Bu mümkün olmadıqda oxucuya onun kitabxana üçün vacib olan digər çap məhsulları ilə əvəz olunması təklif olunur.

3. Müvafiq nəticə alınmadıqda oxucuya itirilən və ya yararsız hala salınan çap məhsulunun yeni qiymətlərlə 10 misli həcmində cərimə ödəmək təklif olunur. Bu qaydalara riayət etməyən şəxslər qeyd olunmuş qanun çərçivəsində nəzərdə tutulmuş qaydalara uyğun olaraq hüquqi məsuliyyətə cəlb olunacaqlar.

Əlavə xidmətlər

- Kitabxana-İnformasiya Mərkəzində elmi müzakirələrin və təqdimatların aparılması


  ATMU tərəfindən təşkil olunan elmi-nəzəri konfranslar, müzakirələr, təqdimatlar və digər elmi tədbirlərinin keçirilməsi üçün KİM-in rəsmi e-mail ünvanına (library@atmu.edu.az) müraciətin göndərilməsi zəruridir. Məlumat

bir iş günü ərzində nəzərdən keçirdilib müraciətçi ilə əlaqə saxlanılır. Məktubunuzda tədbirin məqsədi, iştirakçıların sayı, məruzəçilər haqqında məlumat (ASA, iş yeri və təqdimat mövzusu), tədbirinin nəzərdə tutulduğu tarix və saatı qeyd etməyiniz vacibdir. Oxu zalında keçiriləcək tədbirin formatından asılı olaraq ən çox 40 nəfər iştirakçını yerləşdirilə bilər.

Oxu zalı proyektor, kompüter və səs-gücləndiricilərlə təmin olunub.

- Wi-Fi

ATMU kampusun tərkib hissəsi olaraq KİM yüksəksürətli internet şəbəkəsi (Wi-Fi) ilə təmin olunub. İnternetdən istifadə etmək üçün istifadə edəcəyiniz noutbuk, telefon və digər cihazlarda www.atmu.edu.az veb-səhifəsinə girməklə istifadəçi qaydaları ilə tanış olduğunuzdan sonra **şəkildə** qırmızı oxla göstərilmiş hissədə "I accept the terms of use" (İstifadəçi qaydaları**nı** qəbul edirəm) yazısının əvvəlində quş işarəsini qoyduğunuzdan sonra "Connect" **(Qoşul)** düyməsini basmaqla qoşula bilərsiniz.



- *Qeyd: Kitabxana-informasiya mərkəzində surətçıxarma xidməti təklif olunmur.*